**Şamaxı rayonunda“Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasının “İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması” bölməsi çərçivəsində nəzərdə tutulan çərçivəsində nəzərdə tutulan öhdəliklərin icrasının qiymətləndirilməsi**

**MONİTORİNQİ**

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun icra etdiyi İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (Swiss Agency for Development and Cooperation) "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) qrant layihəsi çərçivəsində növbəti monitorinq səfəri 2016-ci il avqustun 12-13-də Şamaxı rayonunda olmuşdur. Səfərdə “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasının “İnformasiya- kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi” bölməsi çərçivəsində nəzərdə tutulan öhdəliklərin icrasının qiymətləndirilmişdir.

Səfər çərçivəsində Şamaxı Rayon Təhsil İdarəsində və eləcə də bir sıra təhsil obyektlərində görüşlər olmuş və birbaşa monitorinqlər aparılmışdır.

Şamaxı Təhsil İdarəsinin müdiri Eyvaz Eminalıyevbildirdi ki, Şamaxının təhsil infrastrukturu ilə bağlı məsələlər ölkənin inkişaf tempinin tələblərinə cavab verən keyfiyyətin artırılması, təhsilin məzmununun yenilənməsi, müəllimlərin peşəkarlığının yüksəlməsi ilə birgə həyata keçirilir. Onun sözlərinə görə, bu ilin mart ayında ən müasir tələblərə cavab verən 80 şagird yerlik Şərədil kənd ümumi orta məktəbi şagirdlərin ixtiyarına verilmişdir. 380 şagird yerlik Mədrəsə qəsəbə tam orta məktəbinin tikintisi başa çatmış, yeni tədris ilində açılışı olacaqdır. Nağaraxana, Əhmədli, Saqiyan kənd tam və Sis, Səfalı kənd ümumi orta məktəblərinin cari təmiri planlaşdırılmışdır. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədrisin

keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni avadanlıqlar alınmış, Təhsil Nazirliyi tərəfindən şəhər 2,10 saylı, Avaxıl, Çuxuryurd kənd tam orta məktəblərinə müasir laboratoriya avadanlıqları gətirilmiş, Göylər 1, Göylər 2, Sabir qəsəbə tam orta məktəblərinə 4 ədəd notbuk verilmişdir.



Monitorinq nətincəsində bəlli olmuşdur ki, ötən dərs ilində rayonda 72 ümumtəhsil məktəbi, o cümlədən, 51 tam orta, 17 ümumi orta, 4 ibtidai, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərmişdir. Ümumilikdə rayonun ümumtəhsil məktəblərində 12259 nəfər şagird təhsilə cəlb edilmişdir ki, onların təlim-tərbiyəsi ilə 2118 nəfər yüksək ixtisaslı müəllim məşğul olmuşdur . Bunlardan 2015-2016-cı dərs ili ərəfəsində Təhsil Nazirliyinin test yoxlama imtahanlarından keçmiş müxtəlif fənlər üzrə 89 nəfər gənc müəllim rayonda işləmək üçün təyinat almış, 68 nəfəri iş yerinə gəlmişdir.




Təhsil idarəsindən verilən məlumata görə, ümumtəhsil müəssislərində təhsilin keyfiyyətinin əsas göstəricilərindən biri də məzunların uğurla imtahan verib respublikanın müxtəlif ali və orta ixtisas məktəblərinə qəbul olunmasıdır. İlkin məlumata görə 13 nəfər məzunumuz 600-dən çox, onlardan bir nəfəri-Bayramlı Ləman Bünyad qızı 695 bal toplamışdır. Bu da ötən illə müqayisədə 34 faiz çoxdur. THTFT lisey (2 nəfər-695;644 bal), Şamaxı Avropa liseyi (2 nəfər-673;615 bal), şəhər 2 saylı (2 nəfər-654;605),şəhər 3 saylı (1 nəfər-600),Göylər kənd 2 saylı (1 nəfər-632 bal), Əngəxaran kənd (2 nəfər-611;606 bal), Sabir qəsəbə (1 nəfər-602 bal), Məlhəm kənd (1 nəfər-600 bal) məktəbləri bu mənada respublikanın ən istedadlı şagirdlərini yetirən təhsil ocağı kimi qürur doğurur.



**Çətinliklər**

- ✓ Kadr probleminin müşahidə edilməsi. Xüsusən də kənd məktəblərində ixtisaslı kadr problemləri vardır. Monitorinq nəticəsində bəlli olmuşdur ki,yeni müəllimlərin bir qismi sonradan işləmək istəmirlər ki, bu da kadr çatışmamazlığı yaradır.
- ✓ Maliyyə vəsaitlərinin az olması. Bu özünü daha çox müəllimlərin əmək haqqılarının yüksək olmamasında göstərir. Bu baxımdan təhsilinin keyfiyyətinin arıtırlması üçün müəllimlərin əmək haqqlarının artırılması olduqca vacib hesab edilir.

Bütövlükdə, monitorinq nəticəsində bəlli olmuşdur ki, Şamaxı rayonunda insan kapitalının inkişafı ilə bağlı son illər müəyyən irəlləyişlər olsa da təhslinin ənənəvi problemləri, kadr və vəsait çatışmazlığı müşahidə edilməkdədir.

**Qeyd:*****Monitorinq Şamaxı rayonunda 12-13 Avqust 2016-cı il tarixində Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun icra etdiyi İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (Swiss Agency for Development and Cooperation) "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" (AİTEMP) qrant layihəsi çərçivəsində İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) əməkdaşları Vüqar Bayramov və Zamiq Babayev tərəfindən aparılmışdır.***